# 2019-cu ilin "Nəsimi İli" elan edilməsi nəsimişünaslığın inkişafına təkan olacaq

***Bədii və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi insanların mənəvi-əxlaqi cəhətdən kamilləşməsində müstəsna rol oynayır. Bu irs dilçi alimlərin, filosofların, tarixçilərin diqqətində olub və təbliğ, tədqiq edilib. İmadəddin Nəsimi irsinin sistemli tədqiqi və təbliği isə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.***

Belə ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə şairin 600 illik yubileyi keçirilib. 1979-cu ildə Bakı şəhərində Nəsiminin heykəli ucaldılıb, şairə həsr olunmuş film çəkilib. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan ədəbi-bədii, fəlsəfi fikir tariximizə, bütövlükdə, mədəniyyətimizə olan qayğı Prezident İlham Əliyev tərəfindən uğurla və müvəffəqiyyətlə davam etdirilir. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixli "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı ilə kütləvi tirajla nəşr olunub ölkə kitabxanalarına hədiyyə edilən əsərlər sırasında İmadəddin Nəsiminin əsərləri də yer alıb. İmadəddin Nəsiminin bu il anadan olmasının 650 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti 2018-ci il 15 noyabr tarixili Sərəncamı ilə "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdı. Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Sərəncamı bir daha İmadəddin Nəsimi irsinin böyük əhəmiyyət kəsb etdiyini təsdiqləyir. Prezident İlham Əliyevin bu Sərəncamı dünya ölkələri tərəfindən diqqəti çəkib. Hər zaman Azərbaycanın ictimai-siyasi həyatı ilə bağlı olan hadisələri diqqətdə saxlayan dünya mətbuatı bu gün də Prezident İlham Əliyev tərəfindən 2019-cu ili ölkədə "Nəsimi İli" elan etməsi çox əlamətdar və təqdirəlayiq hadisə olaraq maraq doğurub. Belə ki, Mərakeşin "Əl-İslah və Ət-Tənmiyə" qəzetində "Prezident İlham Əliyev Azərbaycanda 2019-cu ili "Nəsimi İli" elan edib" sərlövhəli məqalə dərc edilib. Məqalədə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq, 2019-cu ilin "Nəsimi İli" elan edildiyi vurğulanır. Qeyd olunur ki, Nəsiminin 600 illik yubileyi beynəlxalq miqyasda ilk dəfə YUNESCO tərəfindən 1973-cü ildə keçirilib. Qəzetdə məlumat verilir ki, bir çox tarixçilər və ədəbiyyatşünasların araşdırmalarına görə, Nəsimi Azərbaycanda anadan olub. İlk təhsilini Şamaxıda alıb, dövrün elmlərini, dinlərin tarixini, məntiq, riyaziyyat və astronomiyanı öyrənib. Daha sonra hürufilər Teymurləng tərəfindən ciddi təzyiqlərə məruz qaldığı bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə və Suriyada yaşamağa məcbur olub. Hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub. Onun Azərbaycan dilində yazılmış "Divan"ı qorunub-saxlanılıb, eyni zamanda, fars və ərəb dilində əsərləri qalıb.



Müəllif İmadəddin Nəsiminin fəlsəfə, astronomiya, məntiq, riyaziyyat və təbii elmləri dərindən araşdırıb, onun müxtəlif mövzularda on mindən artıq beytinin qorunub-saxlanıldığını da oxucularının diqqətinə çatdırıb.

Ölkəmizdə "Nəsimi İli" elan edilməsi mənəviyyatımıza, şeirə və sənətə dövlətimiz tərəfindən olan böyük diqqətin daha bir əyani sübutudur. Böyük mütəffəkkirin 650 illiyinin keçirilməsi haqqında Sərəncam və 2019-cu ilin "Nəsimi İli" elan edilməsi böyük ədibin yaradıcılığının çox ciddi şəkildə öyrənilməsi, araşdırılması, təbliğ edilməsi istiqamətində də böyük işlər görəcək. Azərbaycan poetik dilinin inkişafına böyük təsiri olan, hürufiliyin aparıcı simalarından olan İmadəddin Nəsimi öz yaradıcılığı ilə mübarizliyi, sülhü təbliğ edib. İmadəddin Nəsiminin bədii yaradıcılığının Azərbaycan dilinin tarixi inkişafının öyrənilməsində, Azərbaycan şeirinin və ümumiyyətlə, türk ədəbiyyatının təkmilləşməsində müstəsna rolu var. Nəsimi irsinin xalqımızın mənəviyyat xəzinəsində layiqli yerini tutması dünya çapında geniş şəkildə təbliğ olunacaq. Əlbəttə ki, bu, ölkəmizdə nəsimişünaslığın inkişafına böyük təkan verəcək, yeni-yeni kitab, monoqrafiya və sənət əsərlərinin yaranmasını stimullaşdıracaq.

**Nəzakət ƏLƏDDİNQIZI**